# HƏYAT

**Səkinə Qəhrəman**

QANUN NƏŞRİYYATI

Bu kitab insanın öz daxili dünyasına etdiyi bir səyahətdir. Burada qorxu ilə ümidin, qaranlıqla aydınlığın, tərəddüdlə başlanğıcın arasında qurulan incə əlaqələrdən bəhs edilir. Hər bir bölmə insanın özünü tanımasına, daxili gücünü kəşf etməsinə və həyatın qarşısında daha şüurlu dayanmasına bir çağırışdır. Əgər bu sətirləri oxuyarkən öz həyatın haqqında bir anlıq dayanıb düşünmək istəyi yaranırsa, deməli kitab artıq öz məqsədinə çatmışdır. Çünki həyatın ən böyük dəyişiklikləri çox vaxt məhz belə səssiz düşüncə anlarında başlayır.

## MÜNDƏRİCAT


Ön söz ........................................................................ 7
Həyat boş bir dəftərdir ............................................... 15
Qaralandı. İndi necə ağardacaqsan?............................ 27
70-ci cəhd prinsipi....................................................... 33
Özünə etibar et ............................................................ 41
Mən alovun özüyəm..................................................... 49
Mükəmməllik, yoxsa mükəmməlik?........................... 57
Atacan, mən bu otağı bu halında sevirəm................... 67
Davamlı xoşbəxtlik, yoxsa daxili uyğunluq?.............. 75
Mən bunu NECƏ edəcəyəm?....................................... 85
Bu hələ başlanğıcdır..................................................... 91



*İnsan vahid deyil. O, qat-qatdır.*
*Hər tərəfi başqa bucaqdan görünür.*

# Ön söz

Həyatın fəlsəfəsi: 20 yaşlı bir gəncin gözü ilə

Qarşımda 20 yaşlı bir gənc qızın – Səkinə Samir qızı Qəhrəmanovanın *"Həyat – 10 yaşımda yazdığım kitabın, 20 yaşımda təcrübəyə çevrilmiş halı"* kitabçası dayanıb. Hər səhifəni vərəqlədikcə, orada yazılanları oxuduqca buradakı fikirlərin 20 yaşlı bir gəncin beyin məhsulu olduğuna inana bilmirsən. Axı, iyirmi yaşlı bir gənc müdrik insanların belə cəsarət edib demədikləri ifadələri necə də səlis şəkildə ağ vərəqlərə köçürüb. Müdriklər kimi həyatın fəlsəfəsini araşdırıb bütün cəmiyyətə, insanlara mesaj verib. Bu gənc xanım öz əsərini elə bir ruhda, elə bir ardıcıllıqla yazıb ki, onun qabiliyyətinə heyran olmaya bilmirsən. Əsər 10 paraqrafdan ibarətdir. Paraqraflar *"Həyat boş bir dəftərdir"* dən başlayıb *"Bu hələ başlanğıcdır"* da yekunlaşır. O, hər bir paraqrafda insanın daxili dünyasına səyahət edir, ona çətinliklərdən necə çıxmağın yollarını, gələcəyi necə qurmağı öyrədir. O, insana qorxunu necə dəf etməyi, daxildəki cəsarəti, gücü necə oyatmağı təlqin edir. Müəllif qorxu və ümidi insanın yaradıcılıq gücünün iki qanadı kimi qiymətlən-

dirir və hesab edir ki, bu iki qanad birləşəndə insan özünü tapır və daxili gücünü anlayır. Müəllifə görə sözlərin sambalı, ağ səhifələrə toxunan qələmin təması insan azadlığını və iradəsini birləşdirir. Ağ səhifəni (yəni insan həyatının yazılmamış səhifəsini) doldurmaq yalnız yazı xatirinə yazı yazmaq deyil, həm də özünü sınamaq, özünü tanımaq, özünü yaratmaq prosesidir.

Müəllif *"Qaralandı. İndi necə ağardacaqsan?"* paraqrafında keçmişin insan üçün necə mühüm əhəmiyyətə malik olduğunu vurğulamaqla, keçmişin qaranlığından necə qurtulmağı, qaranlıq səhifələrin necə aydınlığa çıxarılmasını insanlara təlqin edir. Müəllifin qənaətincə, keçmişi silmək yox, onun təcrübəsindən dərs alıb aydınlığa çıxmaq lazımdır. Çünki keçmişin qaranlığı və gələcəyin aydınlığı bir-birini tamamlayır. Keçmiş insanın qan yaddaşıdır, heç bir insan yalnız ağ səhifələrdən ibarət deyil, onun həmişə qaranlıq tərəfləri də var. İnsan məhz bu qaranlıqları dərk etməklə, ondan ibrət dərsi almaqla aydınlığa çıxır. Müəllif hesab edir ki, *"Qaranlıq gücü oyadır, aydınlıq isə bu gücü istiqamətləndirir, qaranlıq sarsıdır, aydınlıq ayağa qaldırır, qaranlıq suallar yaradır, aydınlıq isə cavablar verir"*. İnsanın bu məziyyəti necə də bitkilərin fotosintez aləminin (yəni bitkilərin tanrısının) xarakterinə oxşayır. Bitkilərdə də fotosintez iki mərhələdən - işıq və qaranlıq mərhələsindən ibarətdir. Bitkilərin yarpaqlarındakı xlorofil Günəş şüalarını qəbul edərək su və karbon qazını üzvi maddələrə çevirir. Bu çevrilmə qaranlıq mərhələdə baş verir. Qaranlıq mər-

halədə heksozalar, zülallar, karbohidratlar, amin turşular, pektin maddələri, müxtəlif vitaminlər və s. yaranır. Əgər bu qaranlıq mərhələsi olmasaydı, ümumiyyətlə, həyat mövcud ola bilməzdi. Əslində, insan həyatı da belədir. Məhz qaranlıqlar sayəsində insan formalaşır, qaranlığın yaratdığı sualları həll etməklə insan aydınlığa çıxır, gələcəyini qurur. Müəllif paraqrafın sonunda çox müdrik bir nəticəyə gəlir və insanlara tövsiyə edir ki, qaralanmaqdan qorxmaq lazım deyil, onlar sənin keçmişindir, onlardan ibrət alıb gələcəyini qur. Çünki qaranlıqlar insanı dərinləşdirir, fəaliyyət dairəsini genişləndirir və bu genişlik aydınlığa yol açır.

Müəllif əsərdə əfsanəvi türk sərkərdəsi Əmir Teymurun 70-ci cəhd prinsipinin mahiyyətini ustalıqla açmaqla, insanı uğursuzluqdan sarsılmamağa, heç vaxt ümidini itirməməyə, həmişə ardıcıl və səbrli olmağa çağırır. Müəllifin qənaətincə (elə bizim də fikrimizcə) heç bir məğlubiyyətdən qorxmaq, sarsılmaq lazım deyil, əksinə, ondan dərs alıb, yeni yola çıxmaq, özündə güc toplamaq lazımdır. Yəni atalar demişkən, “ İgid odur ki, atdan düşə atlana, igid odur ki, hər əzaba qatlana”. Həyat heç vaxt bitmir, həyat mübarizə meydanıdır. İnsan öz həyatını təkcə nəticələr üzərində deyil, cəhdlər üzərində qurmalıdır. Ağılla edilən cəhd gec-tez aydınlığa çıxmalıdır. Çünki növbəti cəhdin sənin taleyini necə dəyişəcəyini bilmirsən. Yəni həyatın universal qanununu insan həmişə rəhbər tutmalıdır: düşdün qalx, yoruldun dayanma, gecikdin tələsmə, çətinliklə üzləşdin, onu dəf

etməyə özündə güc tap, iradəni topla, heç vaxt təslim olma. Həmişə özünə güvən, etibar et. Xüsusən qaranlıq anlarında özünə güvəni itirmə. Özünə inam insanın ən sadiq yoldaşıdır və bu yoldaş həyatın bütün mərhələlərində ona bələdçilik edir. Bu sözlər müəllifin əsərinin "Özünə etibar et" paraqrafının əsas leytmotivini təşkil edir. Müəllif bu paraqrafın sonunda insanlığa əsl müdrik məsləhət verir: *"Özünə etibar et, çünki bütün böyük dəyişikliklərin başlanğıcı sənin içində baş verir. Dünyanı dəyişdirənlər ilk olaraq özlərinə inanmağı seçənlərdir"*.

Müəllif əsərin "Mən alovun özüyəm" paraqrafında insanın daxilini açaraq, onun potensialının necə güclü olduğunu, daxilini dərk etməklə hansı gücə sahib ola biləcəyini ustadlıqla oxuculara təlqin edir. Müəllifə görə insanın daxilindəki alov həm yaradıcılıq, həm cəsarət, həm də davamlılıqdır. Bu üç qüvvə insanı həyatda öz yerini tapmağa yönəldir. Alov insanın azadlıq rəmzidir. Azad insan heç bir sərhəd tanımır və o, öz daxili sərhədlərini aşdıqca bu alov daha da parlaq şöləl追nir və insanın gələcəyə baxışları daha perspektivli olur. Alov yalnız öz sahibini deyil, ona yaxın olan hər kəsi isitmək, ona yardım etmək gücünə malikdir. Çünki alovun gücü paylaşıldıqca, azalmaz, əksinə daha çox artar.

Gənc yazar əsərində mükəmməllik anlayışına da aydınlıq gətirərək insanın həyat fəlsəfəsində onun yerini təyin edir və göstərir ki, *"mükəmməllik"* çox vaxt kənardan gələn bir səsdir, *"mükəmməlik"* isə insanın daxi-